Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

# Sosial şəbəkədə sərbəstlik və uşaqların milli ruhda inkişaf prosesləri...

**Sosial şəbəkələr meydana çıxandan və insanlar bu şəbəkələrə sərbəst girmək imkanı əldə etdikdən sonra bir sıra problemlər meydana çıxıb. Xüsusən də uşaq və gənclər üçün internetdən, sosial şəbəkələrdən istifadənin əlçatan olması nəticəsində cəmiyyətdə ciddi narahatlıq duyulmaqdadır.**

Uşaq və gənclərin fiziki və mənəvi inkişafının formalaşması üçün aidiyyəti dövlət qurumları, təhsil müəssisələri bir sıra tədbirlər həyata keçirir, bura idman yarışlarını, fənn olimpiadalarını, müxtəlif tədbirləri və sairi daxil etmək olar. Çox təəssüflər olsun ki, uşaq və gənclər bunlardan çox sosial şəbəkələrdən, müxtəlif kompüter oyunlarından istifadəyə daha çox meyl edirlər. Hətta uşaqların kompüter, sosial şəbəkədən kənarda ünsiyyəti də zəifləyib. Ekspertlər qeyd edirlər ki, müasir dövrdə uşaqların ünsiyyət vasitələri çox dəyişib, onlar az görüşsələr, zəngləşsələr də sosial şəbəkələrdə daima əlaqədə olurlar. Ekspertlər yazırlar ki, müəyyən yaşda (11-14 yaş arası) övladınız hansısa sosial şəbəkədə özünə səhifə açmaq istəyəcək, lakin onların onlayn həyatda işlərinin necə gedəcəyinə görə daha çox məsuliyyət valideynlərin üzərinə düşür. Sosial şəbəkələr müxtəlif insanları birləşdirir, burada bir linkə basıb keçməklə istənilən insanla əlaqə qurmaq mümkündür, bəzən bu cür əlaqə çox təhlükəli ola bilər, və övladınız bundan sığortalanmayıb.

**Sosial şəbəkələrdən gələn təhlükələrdən necə qorunmalı?**

Ekspertlərə görə, sosial şəbəkələrdən düzgün istifadə edilmədiyində o uşaqlara daha çox ziyan vurur. Məsələn gün ərzində aşırı dərəcədə kompüter qarşısında oturmaq uşaqların fiziki davranışına da təsir edir və onları tənbəlləşdirir. Bu da bir təhlükədir. Bildiyimiz kimi, uşaqların internetə, sosial şəbəkələrə çıxışları sərbəst olduğu üçün onlar burada öz yaşlarına, psixologiyalarına uyğun olmayan paylaşımlar, yazışmalar da görür. Bəzən bu yolla uşaq istismarçılarının toruna da düşə bilmək təhlükəsi ilə üzləşirlər. Ekspertlər deyirlər ki, sosial şəbəkədən istifadə edən uşaqlarının hər paylaşımını, onu izləyəni, onun izlədiyini və sairi izləməli, daim nəzarətdə saxlamalıdır. Uşaqlar özləri haqda aşırı məlumat verməməlidir. Bu gün sosial şəbəkələrin təhlükəsi o qədər böyükdür ki, onu sözlə ifadə etmək çətindir. Onun bəlkə də xeyrindən çox ziyanı var. Düzdür, informasiya mübarilәsi, məlumat almaq, məlumat paylaşmaq üçün çox uyğundur, amma zərəsiz də deyil. Bire çox ekspertlərə görə, sosial şəbəkələr ictimai rəyin formalaşmasında iştirak edirlər, onlar virtual deyil, real məkandırlar. Mövcud məkanın faydalı tərəfləri olduğu kimi, ziyanlı cəhətləri də var. Biz çalışmalıyıq ki, faydalı tərəfləri uşaq tərbiyəsinin inkişafına yönləndirək və uşaqlar da bu müsbət çalardan yararlansınlar.

Ekspertlər deyirlər ki, sosial şəbəkələr vasitəsilə tariximizi, mədəniyyətimizi, qəhrəmanlarımızı da tanıtmaq işini həyata keçiririk. Bu baxımdan, sosial şəbəkələrdə müəyyən tərbiyəvi nümunələr də var.




**"Sosial şəbəkələr uşaq beyni üçün deyil"**

Sosioloq-jurnalist Lalə Mehralı mövzu ilə əlaqədar "Bakı-Xəbər"ə bildirdi ki, sosial şəbəkələrdə uşaqların müsbət istiqamətdə, vətənpərvər ruhda inkişafı üçün əngəllər çoxdur.

Sosial şəbəkələrin uşaqlar üçün əlçatan olmasının ziyanlı olduğunu deyən ekspert hesab edir ki, onlar uşaqların psixikasını zədələyir. "Sosial şəbəkələr uşaq beyni üçün deyil. Böyüklərə bu barədə irad bildirdikdə ümumiyyətlə, qəbul etmirlər, nəinki övladlarını gözləyən təhlükə barədə düşünsünlər. Niyəsə əksər yetkin insanlar belə məsələlərə etinasız yanaşırlar. Övladının çılpaq fotosunu, hamamdan çəkilmiş kadrları, həssas zamanlarda çəkilmiş görüntülərini yayımlayıb baxış qazanırlar. Belə valideynlərdən uşaqlarını necə qoruyasan?

Uşaqlar da yeniyetmə ikən iddia edirlər ki özlərini qorumağı bacarırlar. Beynində baş verən proseslərdən xəbərdar olmadığı üçün bu cür düşünməsi normaldır. Axı biz görürük sosial şəbəkələrdə nələr olur, nələb baş verir. Oranın uşaqlar üçün yeri gəldikdə necə bir bataqlığa çevrilə biləcəyini bilirik. Zənnimcə, məhdudiyyətlər tətbiq olunmalıdır. Digər tərəfdən, insan üçün yaradılan hər vasitə rahatlıq da yarada bilər, çətinlik də, sadəcə istifadəçidən çox şey asılıdır. Amma uşaqlar üçün zərərləri faydasından daha çoxdur".

L.Mehralı ekspert kimi, məhdudiyyət tətbiq retməsinin tərəfdarı olduğunu deyir. Ekspertin sözlərinə böyük həqiqət var və doğrudan da bəzi valideynlər fərqinə varmadan sosial şəbəkələrdə uşaqların hər cür şəkillərini yayırlar. Bəzi valideynlərin bu məsələdə uşaqlarını izləmədiyi də faktdır. Bəzən görürsən ki, uşaqlar "Tiktok"da elə şeylər paylaşırlar ki, adam təəccüblənir.

Bu səbəbdən hesab edirik ki, uşaqların sosial şəbəkələrin toruna düşməməsi üçün ciddi tədbirlər görülməlidir. Bəzi ekspertlər hesab edir ki, Azərbaycan xüsusi proqramlarla təchiz edilmiş şəbəkələr yaradıb uşaqların ixtiyarına verə bilər və bununla da uşaqlarımızı bu bəladan xilas etmək olar. Bu gün sosial şəbəkələr təkcə bizim deyil, bütün dünyanın bəlasına çevirilib. Bir araşdırmaya görə, Böyük Britaniyada aparılan araşdırmanın nəticələrindən məlum olub ki, sosial şəbəkələr uşaq və gənclərdə narahatlıq və qorxu yaradır. Burdan da bir daha aydınlaşır ki, sosial şəbəkələr uşaq və gənclərin mənəvi və fiziki tərbiyəsinə müsbət təsir etmir.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**